

Ələsgər Siyablı
Tarixçi.
Almaniya, Velbert şəhəri

# 28 Maydan başlayan Turan yolu

## Rəsulzadə dünyagörüşündə türkçülük və turançılıq ideyaları

(əvvəli ötən sayımızda)

***Rəsulzadə yazır ki,Türkiyə Azərbaycanı özünə turan məfkurəsi üçün bir nemət, bir bəxşiş kimi qəbul etdi. Yeni Azərbaycan Türk ocağı və Türk yurdu tərəfindən layiqincə qarşılandı.***

***Azərbaycan həqiqətən də əsrimizdəki Turan torpağının gözəl bir parçasıdır. Azərbaycanın adına "Altun dastan" yazdılar, Turanın "Böyük hədəfi" olan qeybdəki Qızıl Almanın Azərbaycandan Tomris xanımın gətirəcəyinə kəhanət verdilər.***

***Türkiyə cümhuriyyəti ilə Azərbaycan cümhuriyyəti arasındakı münasibətləri Turan birliyi ruhunda dəyərləndirən Rəsulzadəyə görə "Turançılıq, türkçülük ədəbi məsləki Türkiyə ilə Azərbaycanı bir-birinə bağlayan ən davamlı bir bağ, mətanətli bir ip idi." (6.35).***

***Müasir dövründə M.Ə.Rəsulzadənin turançılıq-türkçülük haqqındakı görüşlərinin inkarı və onun azərbaycançılığı məsələsini ciddi-cəhdlə qabartmaq meylləri artmaqdadır.Bunda məqsəd müstəqillik dövründə yenidən qovuşduğumuz türk milli kimliyindən siyasi səbəblərlə imtinaya və sovet dövrünün azərbaycanlı kimliyinə yenidən dönülməsinə haqq qazandırmaqdan ibarətdir.***

M.Ə.Rəsulzadənin turançı-türkçü ideyası tədricən təkamülə məruz qalaraq konkretləşmiş və türkçülük,müasirlik və islamçılıq düsturu formasında Azərbaycan türkçuluyu və ya bəzən azərbaycançılıq termini ilə ifadə edilən Azərbaycan milli ideologiyasının təməlini təşkil etmişdir.

M.Ə.Rəsulzadənin irəli sürdüyü azərbaycançılıq ideyası Cümhuriyyətin ilk dövrlərində mövcud olan şəraitin diqtə və tələbi ilə ortaya atılmış fikir idi.

İngilis imperializmi Osmanlı İmperiyasının Turan birliyi adı altında türklərin yaşadıqları əraziləri öz hakimuyyəti altında birləşdirmə siyasətini və dövlətin rəsmi siyasi doktrinası olan panislamizm və turançılıq ideyalarını özünün Şərq ölkələrinə qarşı yürütdüyü işğalçılıq siyasəti qarşısında əsas əngəl hesab edirdi və bu ideyaları rəhbər tutan AXC hökumətinə qarşı da neqativ münasibətini açıqca bəyan edir və AXC-ni tanımaqdan imtina edirdi.

1918-ci ilin 16 noyabrında, Bəndər-Ənzəlidə Nəsib bəy Yusifbəylinin başçılığı ilə Cümhuriyyət nümayəndələri ilə görüşdə General Tomsonun irəli sürdüyü tələblərin başında Türk qoşunlarının Bakıdan və bütün Azərbaycan ərazisindən çıxarılması məsələsi dururdu.General Tomson nümayəndə heyətinə bildirmişdir:"Bizim bildiyimizə görə Azərbaycan xalqının ümumu rəyi ilə yaranan bir Cümhuriyyət yoxdur.Yalnız Türk komandanlığının intriqası ilə təşəkkül tapmış bir hökumət vardır.Madam ki siz bunun əksini iddia edirsiniz,o halda gələr,yerindəcə araşdırar və uyğun qərar verərik."

İngilislərin bu ultimatumu qarşısında Nuri paşa Türk ordusundan istefa verib Azərbaycan ordusuna qatıldığını bəyan etsə də bu ingilisləri qane etmədi.

Vəziyyəti daha da ağırlaşdıran fakt ondan ibarət idi ki, Almanlar Brest-Litovski sözləşməsinin şərtlərinə uyğun olaraq Azərbaycanın Kür çayına qədərki torpaqlarını Rusiyaya ərazisi olaraq tanımışdı. Şimali Qafqazda yerləşən ingilislərin müttəfiqi Denikin ordusu Azərbaycanı təcavüzlə hədələyirdi.

Türklər Bakını Noyabrın 17-sində tərk etdilər.Cümhuriyyətin Osmanlı dövlətinin tərkib hissəsi kimi türklər tərəfindən yaradıldığı fikrini qəbul edən ingilislərin Bakıya daxil olmasını xalqın böyük əndişə ilə qarşıladığını qeyd edərən M.Ə.Rəsulzadə yazırdı:"İngiltərənin Azərbaycan istiqlalına qarşı alacağı vəziyyəti şübhələr içində qaranlıq bir vəziyyətdə idi. General Tomsonun ordusu ilə bərabər Biçeraxovun dəstəsi dəxi şəhərə daxil oluyor, şəhər üzərində uçuşan qara qarğalar (ayroplanlar) Rusiya ordusunun təkrar kəndi toprağına gəldigini "Rusiya vətəndaşlarına təbşir" etdiyini həyəcanla bildirirdi.İngilislərin şəhərə daxil olduğu ikinci gün İngiltərə komandanı Tomson bəyanat verərək Bakını Rusiyanın bir hissəsi kimi tanıdığını və yeni Rusiya hökumətinin razılığı ilə buraya gəldigini qeyd edirdi.İngilislərin hər an Parlament binasına hücum edib onun fəaliyyətini qadağan edəcəyi gözlənilirdi.

Türk ordusunun Azərbaycanı tərk etməsi və ingilislərin də gəlməsi ilə daxildəki qeyri-türk etnik qrupların və siyasi qüvvələrin, eləcə də müxalif partiyaların Cümhuriyyətə qarşı düşmən münasibətlərinin daha da kəskinləşməsi M.Ə.Rəsulzadəni və Cümhuriyyətin digər rəhbərlərini türkçülük-turançılıq ideyalarına münasibətdə daha ehtiyatla davranmağa və azərbaycançılıq və Azərbaycan milli ideyası məsələsini qabartmağa məcbur edirdi.

M.Ə.Rəsulzadə ingilislərin Bakıda olduğu dövrdə parlamentdə Müsavat partiyasını türkləri həm dəvət etməkdə, həm də onların əleyhinə olmaqda ittiham edənlərə cavab olaraq deyirdi:"Əfəndilər! Türkləri Azərbaycana dəvət etməklə bərabər "Müsavat" türklərin əleyhinə idi də. Bu da bir nöqteyi-nəzərdən doğrudur. "Müsavat" firqəsi birinci firqədir ki, Qafqasiyada türklük bayrağını yüksək qaldırıb türklük hissiyyatını oyatmışdır. Fəqət bununla bərabər "Müsavat" hər zaman türklər ittihadını bir konfederasyon şəklində təsəvvür eləmişdir. Biz bilirdik ki, Şimal istibdadından yeni yaxasını qurtarmış Azərbaycan türkünün yüz sənədən bəri adət eləmiş xüsusi əhvalları vardır. Biz bilirdik ki,İstanbul doğrudan-doğruya Bakıyı idarə etmək istərsə xəlq bu idarəyə təhəmmül eləməz. Bakı İstanbula qarşı üsyan edər. Bunu biz hər zaman bilirdik. Onun üçün də Azərbaycanın kəndi başına idarə olunmasını istiyorduq."

***Rəsulzadə Türk ordusunun dəvət edilməsinə haqq qazandıraraq 'türklər gəlməsəydi Bakıda vüqu bulan mart hadisəsinin təsiri yalnız Bakıda qalmayıb bütün Azərbaycanı istila edəcəkdi" deyirdi.***

***Cümhuriyyət ətrafında yaranmış olan ciddi hərbi-siyasi təhlükəni nəzərə alan Rəsulzadə bu sözlərlə Türk qoşunlarını dəvət edən partiyasına haqq qazandırmaqla yanaşı,daha tədbirli davranaraq Osmanlı dövlətinə və Türk ordusuna münasibətdə ingilis komandanlığını qıcıqlandıracaq ifadələr işlətməməyə çalışırdı.***



***O,Azərbaycan Cümhuriyyətinin Türk ordusu tərəfindən yaradıldığı və Osmanlı dövlətinin tərkib hissəsi olduğu haqqında irəli sürülən fikirləri təkzib etməklə, ilk öncə ingilisləri və sonra isə onların köməyi ilə Cümhuriyyəti devirmək niyyətində olan daxildəki düşmən siyasi qüvvələri sakitləşdirmək məqsədi güdürdü.***

Türklük ruhundan doğan idealları yüksək dəyərləndirən Azərbaycan türk siyasi xadimləri, M.Ə.Rəsulzadənin sözləri ilə "Azərbaycan fikrinin "İstanbuldan" degil, Bakıdan doğmuş olduğunu nəticə etibarı ilə isbat etdilər.Bu sübutla hər kəsdən əvvəl bitərəf bir qüvvət olması həsəbilə ilk əvvəl ingilis komandanlığı qane oldu. Onun bu qənaəti Azərbaycanm daxili müxaliflərini də düşündürdü.(4)

Çünki türklər gəlməsəydi Bakıda vüqu bulan mart hadisəsinin təsiri yalnız Bakıda qalmayıb bütün Azərbaycanı istila edəcəkdi."

Rəsulzadənin Osmanlı dövləti və Türk ordusuna münasibət məsələsinə gətirdiyi aydınlıq general Tomsonun AXC-yə olan münasibətində müsbət dəyişikliyə səbəb oldu.Tomson 1918-ci ilin noyabrında verduyi ikinci bəyanatda müttəfiq qoşunlar komandanlığı olaraq Azərbaycan Cümhuriyyəti koalisyon hökumətini ölkədə yeganə məşru hökumət olaraq tanıdığını bəyan etdi.1919-cu ilin yanvarında Bakıya gələn İngiltərə kralı hökumətinin nümayəndəsi general Miln də rəsmi surətdə Azərbaycan hökumətini tanıdığını bildirmişdir.

Rəsulzadə nə qədər Azərbaycan ideyasının siyasi bir doktrin kimi formulə etmək şərəfinin ona deyil Nəsib bəy Yusifbəyliyə məxsus olduğunu söyləsə də kökündə türkçülüyün durduğu azərbaycançılıq ideyasının daha da inkişaf etdirmək məhz ona nəsib olmuşdur.Rəsilzadənin türkçülüyü və azərbaycançılığı bir-birini tamamlayan vahid bir sintez təşkil edir.

Azərbaycan türkü,Azəri türkü,Azərbaycan dili anlayışlarına açıqlıq gətirən M.Ə.Rəsulzadəyə görə "Azərbaycan ismi isə coğrafi bir istilah olmaqdan ziyadə qövmi bir məna ilə işlənmişdir. Biz kəndimizi Azərbaycan dili ilə (ki türkcənin bir növüdür) mütəkəllim məxsus bir qövm ədd edəriz. Bu qövmün ismi nə Aran, nə Şirvan, nə də Muğandır.Yalnız Azərbaycandır. Qafqasiyadakı azərbaycanlılar Azərbaycan kəlməsini coğrafi mənasından ziyadə qövmi bir mənada istemal ediyorlar. Dünyada yalnız bir Azərbaycan qitəsi degil, bir də Azərbaycan cəmaəti vardır. Bu cəmaət kəndisinə məxsus bir ləhcə ilə qonuşur türk əqvamından bir millətdir...Bu, əsrimizdəki tərifati-elmiyyəsi ilə qismən millət olmağa namizəd və qismən də bir millət olmuş xəlqin məruf bir ismi vardır:Azərbaycan türkü və yaxud Azəri türklər."(4)

Ərəb-fars dilindəki anlayışların mənasını gözəl bilən M.Ə.Rəsulzadənin Azərbaycanlı adı ilə təqdim etdiyi xalq,qövm,cəmaət kimi sosoloji təbirlər etnik birlik anlamı daşımayıb həmin ərazidə yaşayan bütövlükdə xalqı,əhalini və dini mənsubiyyət baxımından camaatı nəzərdə tutur.Milli Öndərin istifadə etdiyi qövm terminin anlamı xalq deməkdir.Rusiya xalqı,İran xalqı ifadələrində olduğu kimi "Azərbaycan xalqı" ifadəsi də konkret etnik birlik anlamı daşımayıb Azərbaycan dövləti ərazisində yaşayan və Azərbaycan dilində danışan müxtəlif etnik mənşəyə malik insanlardan ibarət bütün vətəndaşları əhatə edir.

Rəsulzadə bu cəmaət və xalq içərisində bir də konkret etnik birlik-millət olaraq Azərbaycan türk millətinin mövcudluğunu xüsusi olaraq qeyd edir.

Cümhuriyyət qurulana qədər ölkəmizdə yaşayan etnik azlıqlar dominant etnos olan türklərlə yanaşı Rusiya imperiyasının təbəələri idilər və yeni yaranan Azərbaycan Cümhuriyyəti dövlətinin qanunlarına tabe olub vətəndaşlığını qəbul etməyə bir o qədər də həvəs göstərmirdilər.Osmanlı Türkiyəsinə qarşı bir çoxlarının düşmən münasibət bəslədiyi bu etnik azlıqlar Azərbaycan Cümhuriyyətini Osmanlı imperiyasının tərkib hissəsi kimi qəbul edir və özlərini hələ də Rusiya təbəəsi hesab edirdilər.

Məhz buna görə də M.Ə.Rəsulzadə və digər ictimai-siyasi xadimlər kökündə türkçülüyün durduğu Azərbaycan milli ideyasını-azərbaycançılığı yorulmadan təbliğ edir,Azərbaycan və Cümhuriyyət fikrinin İstanbuldan deyil Bakıda doğulduğunu və Cümhuriyyətin milli ayrı-seçkilik qoymadan ölkə ərazisində yaşayan bütün əhali qruplarını əhatə edərək onların vətəndaşlıq haqlarını qoruyacağını yorulmadan bəyan edirdilər.

M.Ə.Rəsulzadə məhz bu ardıcıl fəaliyyətin və təbliğatin nəticəsi olaraq "Azərbaycan fikrinin yalnız son günlərə qədər onu inkar edə gələn digər türk olmayan partiyalar tərəfindən də qəbul edilməkdə olduğunu" yazır."Azərbaycan məfkurəsini firqə türk demokratiyasının idrakli qismine istinad edərək irəlilətmişdi, bu düşmənlərimizin dediqi kibi xan, bəy və ağa fikri degil, türk demokratiyasının böyük idealı idi! Əvvəlcə firqəmizə məxsus olan bir fikir, bu gün millətin şərik olduğu bir məqsəddir."(4)

***M.Ə.Rəsulzadə Azərbaycan Cümhuriyyətinin aləmi-islamda təşəkkül edən ilk Cümhuriyyət" olduğunu, "Azərbaycançılıq ideyasını rəhbər tutaraq 'müstəqil Azərbaycan şüanının Türkiyənin və türk birliyinin maraqlarına zidd" olmadığını,"Cümhuriyyətin eyni zamanda bir türk hökuməti; təbiri-digərlə kiçik Türkiyə" olduğunu xüsusilə vurğulayır . (4,6)***

***Cümhuriyyətin qurucu babalarının irəli sürdüyü azərbaycançılıq ideyası birləşdirici funksiya daşıyıb Azərbaycanın ərazisində yaşayan müxtəlif etnik qrupların və dominant millət olan türklərin həmrəyliyini ifadə etməklə yanaşı Azərbaycanın dövlət müstəqilliyini dəstəkləyən, onun gücləməsini arzu edən bütün insanları vahid vətən ideyası ətrafında birləşdirmək məqsədi güdürdü.***

M.Ə.Rəsulzadənin Azərbaycançılıq və ya Azərbaycan xalqı ideyası etnik mənsubiyyət fərqi qoyulmadan Azərbaycan adlı coğrafiyada yaşayan bütün əhalini əhatə edir.

Cümhuriyyətin süqutundan sonra da turançılıq-türkçülük ideyalarına sadiq qalan M.Ə.Rəsulzadə bir çox əsərində dəfələrlə bu mövzuya yenidən qayıtmış, onun Azərbaycan xalqı üçün milli və siyasi əhəmiyyətini vurğulayaraq daha da inkişaf etdirmiş,Azərbaycanın Türk dünyasının gələcək tarixində oynayacağı önəmli rolu xüsusilə vurğulamışdır.

Rəsulzadə Rusiya inqilabı nəticəsində çarın devrilməsi və rus imperiyasının dağılmasını Türklər üçün bir qurtuluş-Ərqənəkon hesab edir. Yüz illərdir türkləri öz əsarəti altında saxlayan Rusiya imperiyasının müxtəlif tarixi dövrlərdə məruz qaldığı siyasi böhranlar türk xalqlarının mərhələlərlə azadlıq əldə etmələrinə əlverişli şərait yaradır, onların Ərqənəkon haqqında xeyalları gerçəkləşir. Milli dövlətçiliyimizin banisi M.Ə.Rəsulzadənin milli müstəqillik ideyalarını rəhbər tutan Azərbaycan xalqı öz mübarizesi ilə sovet imperiyasının dağılmasında önəmli rol oynayaraq azadlığını əldə etmiş, digər müstəqil Türk cümhuriyyətləri ilə birlikdə yeni Turan birliyinin əsasını qoymuşdur. Böyük Məmməd Əmin Rəsulzadə peyğəmbərcəsinə kəhanətdə bulunaraq Turan birliyinin gələcəyi haqqında deyirdi: "Bütün Türklər öz aralarında böyük dünya federasiyonuna qədəm olmaq üzrə bir federasyon yapmalıdır. Yeni Turan, mədəni birlik üzərində təsis edilib, ancaq gələcək Turan birər Türk hökumətlerinin federasyonu şəklində təsəvvür oluna bilər. Azərbaycan da bu gələcək Turan birliyinin bir halqasıdır."(6.)

***Milli dövlətimizin banisinin Turan haqqındakı kəhanəti gerçək oldu. Sovet imperiyası çökdükdən sonra müstəqil türk dövlətlərinin yaratdığı "Türk Dövlətləri Təşkilatı" Azərbaycan türk dövlətinin banisi ulu öndər Məmməd Əmin Rəsulzadənin konturlarını müəyyən etdiyi Yeni Turanın müasir dövrdə siyasi təcəssümüdür.***

***Türklər üçün qurtuluşun simvoluna çevrilmiş Ərqənəkon min illər keçməsinə baxmayaraq, yenə də xilaskarlıq missiyası daşımaqda davam edir.***